*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 184-193* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2023.1.184*

# Əliqulu Qəmküsar və “Molla Nəsrəddin” satirik jurnalı

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Annotasiya.** Məqalədə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, “Molla Nəsrəddin” ədəbi məktəbinin yaradıcılarından biri və jurnalın ikinci redaktoru, şair, publisist, aktyor, ictimai xadim Əliqulu Qəmküsarın satirik yaradıcılığından bəhs olunur. Şairin ədəbi yaradıcılığının əsas istiqamətlərindən birini Azərbaycan mətbuatının ilk satirik orqanı olan “Molla Nəsrəddin” jurnalındakı ədəbi fəaliyyəti təşkil edir.
Əliqulu Qəmküsarın yaradıcılığının məhsuldar dövrü əsasən, 1910-cu illərə təsadüf edir. Bu illərdə şairin yaradıcılığının əhatə dairəsi xeyli genişlənir. O, həm Cənubi Azərbaycanda, həm də Şimali Azərbaycan həyatında baş verən ictimai-siyasi, sosial, mənəvi-əxlaqi məsələləri yaradıcılığının əsas mövzusuna çevirir. “Molla Nəsrəddin” ədəbi məktəbinin fəal üzvləri C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ö.F.Nemanzadə, Ə.Nəzmi, Ə.Razi, S.Mümtaz, M.S.Ordubadi kimi, Ə.Qəmküsarın da yaradıcılığında daha çox elmə, təhsilə, mədəniyyətə qənim kəsilən insanların, fanatizmin, yalançı vaizlərin, şarlatan mollaların, geriliyin, xurafatın, cəmiyyətdəki bütün eybəcərliklərin ifşası əsas yer tutur.
**Açar sözlər:** “Molla Nəsrəddin” jurnalı, Əliqulu Qəmküsar, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, satirik şeir, felyeton, pamflet

**Məqalə tarixçəsi:** göndərilib – 18.02.2023; qəbul edilib – 23.02.2023

# Aligulu Gamkusar and satirical magazine “Molla Nasraddin”

**Gulbeniz Babayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Abstract.** In the article is dealt with the satirical creativity of Aligulu Gamkusar, prominent representative of Azerbaijani literature of 20th century, one of the creators of literary school “Molla Nasraddin”, second editor, poet, publicist, actor and public figure. Literary activity in the magazine “Molla Nasraddin” that was first satirical organ of Azerbaijani press is one of the main directions of the poet's literary creativity.
The productive period of Aligulu Gamkusar’s creativity coincides with the 1910s. During these years, the scope of the poet's creativity expanded considerably. Poet’s creativity was expanded considerable in these years. The main topic of his creativity were the socio-political and spiritual-moral issues that happened in the life of both South and North Azerbaijan. The exposure of fanaticism, false preacher, charlatan mullahs, retardation, superstition and all deformities in society that were contrary to science, education and culture took the main place in the creativity of A.Gamkusar as in the works of active members of literary school “Molla Nasraddin” such as

J.Mammadguluzade, M.A.Sabir, A.Hagverdiyev, O.F.Nemanzade, A.Nazmi, A.Razi, S.Mumtaz and M.S.Ordubadi.
**Keywords:** "Molla Nasraddin" magazine, Aligulu Gamkusar, Jalil Mammadguluzade, Mirza Alakbar Sabir, satirical poem, feuilleton, pamphlet

**Article history:** received − 18.02.2023; accepted − 23.02.2023

## Giriş / *Introduction*

Görkəmli şair, publisist, aktyor, ictimai xadim Əliqulu Qəmküsar XX əsr Azərbaycan ədəbiyyatının yetişdirdiyi böyük ədəbi simalardan biridir. O, ədəbi fikir tariximizdə "Molla Nəsrəddin" satirik jurnalının redaktorlarından biri, 1906-1911-ci illərdə İranda baş verən məşrutə hərəkatının fəal iştirakçısı, Azərbaycanda teatr sənətinin inkişafında müəyyən xidmətləri olan istedadlı bir şəxs kimi özünəməxsus yer tutur. Şair yaşadığı dövrün bütün problemlərini öz maraqlı və kəskin ruhlu satirik əsərlərində yüksək sənətkarlıqla əks etdirmişdir. Mənsub olduğu xalqın dərdini, qəmini, ictimai-siyasi, sosial qayğı və problemlərini özünün problemi hesab edən təəssübkeş şair məhz elə bu səbəbdən də "Qəmküsar" təxəllüsü götürmüşdür. Şair xalqla bağlı düşüncələrini ilk mətbu şeirində açıq bəyan etmişdir:

*Dinəndə yandı dilim,*
*Dinməyəndə dil yandı.*
*Nə dərdi gizlədə bildim,*
*Nə aşikar eylədim.* [20]

Ə.Qəmküsar əsərlərini keçən əsrin əvvəllərində nəşr olunmuş bir sıra mətbuat orqanlarında, o cümlədən "Molla Nəsrəddin", "Yeni füyuzat", "Həyat", "İrşad", "Sədayi-həqq", "Al bayraq" və s. qəzet və jurnallarda çap etdirmişdir. O, satirik əsərlərini "O taylı", "Cüvəllağı", "Cüvəllağı bəy", "Sarsaqqulu bəy", "Qəmküsar", "Xadimi-millət", "Sümurğ" və başqa imzalarla dərc etdirmişdir.

## Əsas hissə / *Main Part*

1912-ci ildə "Molla Nəsrəddin" jurnalının nəşrinə ciddi maneələr yaranır. Buna görə də jurnal həmin ilin 9-cu nömrəsindən sonra nəşrini dayandırır. "Molla Nəsrəddin"in ciddi təqib və təpkilərlə üzləşdiyi bu çətin məqamda jurnalın nəşrinə kömək məqsədilə Cəlil Məmmədquluzadə Əliqulu Qəmküsarı Tiflisə dəvət edir. 1912-ci ilin oktyabr ayında Qəmküsar Tiflisə köçür və Cəlil Məmmədquluzadə ilə sıx dostluq münasibətləri qurur. Nəhayət, jurnal 1913-cü ilin yanvarında yenidən fəaliyyətini davam etdirir və Ə.Qəmküsar "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlığa başlayır. "Molla Nəsrəddin" jurnalı on aylıq fasilədən sonra oxuculara bildirirdi ki,"...gələcəkdə hökumətdən izin hasil olandan sonra məcmuəmiz irəliki baş mühərrirdən savayı dəxi yoldaşımız Əliqulu Nəcəfovun imzası ilə çıxacaqdır". Həmin il fevralın 20-də çıxan 5-ci nömrədən başlayaraq 1913-1914-cü illərdə "Molla Nəsrəddin" jurnalında məsul mühərrir kimi Cəlil Məmmədquluzadə ilə yanaşı, Əliqulu Nəcəfovun da imzası getmişdir. Onun "Molla Nəsrəddin"ə ikinci redaktor təyin olunması ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. "Kaspi" qəzeti bu məsələni təqdir edərək, 1913-cü il 3 mart tarixli nömrəsində yazırdı ki, "...Əliqulu Qəmküsarın redaktorluğa gəlməsi həm jurnala və həm də xalqa daha böyük xeyirlər verəcəkdir". Şair "Molla Nəsrəddin" jurnalında fəaliyyətə başladığı dövrdə daha kəskin satirik şeirlər yazmağa başlayır.

Cəlil Məmmədquluzadə ədibin "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlığından bəhs edərək yazır: "...şair Əliqulu Qəmküsar bizim məxsusi qələm yoldaşımızdır, belə ki, "Molla Nəsrəddin"in

3-cü ilindən, yəni 1908-ci sənədən başlayaraq, Qəmküsarın mənzum və mənsur əsərlərinə, məqalə və şeirlərinə rast gəlmək olar. Şairimizin əvvəlki illərdə "Xadimi-millət", "Otaylı" və son illərdə "Cüvəllağı", "Cüvəllağı bəy", "Sarsaqqulu bəy" təxəllüsləri məşhurdur. Belə ki, həmin təxəllüslərlə Qəmküsar yoldaşımız məcmuəmizdə iştirak edibdir... Bunu da qeyd etməyi lazım bilirik ki, "Molla Nəsrəddin"də iştirak edən şairlər cərgəsində Cüvəllağı yoldaşımız fikir açıqlığı və mövhumata qarşı şiddətli tənqid və çıxışları ilə hətta Sabiri də qabaqlamışdı" [12, s.90-91].

Əliqulu Qəmküsarın satirası həm ideya və məzmunu, həm də bədii üslubu ilə M.Ə.Sabir satirasının davamı idi. Ə.Qəmküsar "Molla Nəsrəddin" jurnalının Azərbaycan dilinin saflığı və xəlqiliyi uğrunda apardığı mübarizədə fəal iştirak etmişdir.

Şairin "Molla Nəsrəddin" jurnalında "Dolaşma" (1909, №35), "Axund" (1909, №46), "Eyləmə qəm" (1910, №40), "Gəldi yenə..." (1910, №41), "Sür ömrünü" (1911, №6), "Dindar olanın" (1911, №27), "İranlılar" (1911, №28), "Ey Məmdəli" (1911, №33), "Sinəzən" (1911, №45), "Harda düşür", (1913, №3), "Bayramlıq" (1913, №8)", "Qələm arkadaşım Kefsizə" (1913, №11), "Füzulini beşlətmə" (1913, №24), "Hacılar" (1914, №1), "Qorxuram" (1914, №9), "Gülməsin" (1914, №18), "Ol gün ki..." (1917, №6), "Bir əsr idi" (1917, №7), "Çox da" (1917, №8), "Min il yazsan da..." (1917, №17), "Şeytan işidir" (1913, №13) və başqa şeirləri dərc olunmuşdur.

Ə.Qəmküsar 1907-1909-cu illərdə İranda baş verən siyasi prosesləri ardıcıl izləyir, İran inqilabı ilə bağlı əsərlər yazıb çap etdirir. Şair İranda, Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatı dəstəkləyir. Cənubi Azərbaycanın müxtəlif şəhərlərindən – Təbriz, Maku, Xoy, Ərdəbil və başqa yerlərdən yazdığı publisist məqalələrində cənublu həmvətənlərimizin azadlıq uğrunda apardığı mübarizəni təqdir edir, xalqı zülm və istibdad əleyhinə, şahlıq rejiminə qarşı mübarizəyə səsləyirdi. Şair İran məşrutə inqilabının fəal mücahidlərindən olan Səid Səlmasinin bu hərəkatdakı fəaliyyətini izləyir və onunla həmfikir olduğunu bəyan edirdi. Hər iki demokratik fikirli gənci eyni əqidə və amal birləşdirirdi. Zülmə, köləliyə, istismara, ictimai ətalətə qarşı barışmazlıq. Bu ideyanı onların bir-birilə məktublaşmalarında da açıq-aydın görmək mümkündür. Əliqulu Qəmküsar Təbriz inqilabının şah ordusu tərəfindən süquta uğradılmasını, məğlubiyyətin səbəbini xalqın qeyri-fəal mövqeyində, sonadək əzmkarlıq göstərməməsində görür və acı təəssüf hissilə yazır:

*Dedilər gərçi mülki-İranə,*
*Açdı məşrutə bir tərəqqi-nəcat,*
*Püfləyib ruhi-tazə hər yanə,*
*Eylədi mürdəkanə bəxş həyat,*
*Ləğvidir büsbütün bu əfsanə,*
*Demişəm mən bu mətləbi-kərrat,*
*Altı min il yatan səfilanə,*
*Oyananmaz, mahaldır, heyhat...* [7, s.6]

Əliqulu Qəmküsarın

*"Gəldi yenə Rəhim xan İranə, bərakallah!*
*Çıxdı əcəb igid tək meydanə, bərakallah!"* –

misraları ilə başlanan satirasında İran məşrutə hərəkatına qənim kəsilən, xalqın azadlıq ideyalarını boğan Rəhim xanı sərt ittiham aktı ilə üz-üzə qoyur. İran inqilabının məğlubiyyətini dərin hüzn və kədərlə qarşılayan şairin Cənubi Azərbaycanla bağlı ümidləri reallaşmadığı üçün bu tarixi hadisə onun yaradıcılığında öz mənfi izlərini qoymuşdur. Çünki Ə.Qəmküsar 1917-ci ildə Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə baş verən hərəkata münasibət bildirməmişdir.

Əliqulu Qəmküsarın yaradıcılığının məhsuldar dövrü əsasən, 1910-cu illərə təsadüf edir. Bu illərdə şairin yaradıcılığının əhatə dairəsi xeyli genişlənir. O, təkcə Cənubi Azərbaycanda deyil, həm də Şimali Azərbaycan həyatında baş verən ictimai-siyasi, sosial, mənəvi-əxlaqi məsələləri yaradıcılığının əsas mövzusuna çevirir. Şair Cənubi Azərbaycanda hökm sürən despotizmlə yanaşı,

həm də çar Rusiyasının boyunduruğu altında əzilən, istismarçı rejimin təəbəliyində inləyən Şimali Azərbaycan xalqının acınacaqlı taleyini əks etdirən əsərlər yazaraq xalqı öz haqq işi uğrunda mübarizədə fəal olmağa, müstəmləkəçilikdən qurtulmağa səsləyir.

Fanatizmə qarşı mübarizənin önündə gedən Cəlil Məmmədquluzadə yazırdı: "Molla Nəsrəddin"in məqsədi nə dinə sataşmaqdı, nə də təzə bir məzhəb icad etməkdir. "Molla Nəsrəddin"in qəsdi vəhşi adətlərin ortalıqdan götürülməyi yolunda çalışmaqdır" [15].

Əliqulu Qəmküsarın yaradıcılığında cəmiyyətdəki təbəqələşmə, var-dövlət sahiblərinin, bəy və mülkədarların yoxsulların həyat tərzinə qarşı biganəliyi, aclıq və səfalətdən əziyyət çəkən insanların ehtiyac içərisində məhv olması kimi mühüm problemlər geniş yer tuturdu. Şair mövcud cəmiyyətdə insanların maddi və mənəvi sıxıntılarını nəzmə çəkərək, bu acı reallıqları ürək ağrısı ilə oxuculara çatdırır:

*Novruz yetişdi, füqəra oldu pərişan,*
*Əfsurdə və nalan,*
*Hər məmləkətin pulları xürrəmi-xəndan,*
*Pulsuzları giryan.* [14]

Şair cəmiyyətdə bir-birinə antoqonist münasibətdə olan varlı-kasıb təbəqələrini qarşılaşdırır, əsərlərində onların özünəməxsus xüsusiyyətlərini, fərdi cizgilərini satirik şəkildə əks etdirərək oxuculara tanıtdırır. Ə.Qəmküsar müxtəlif xarakterli tipik mənfi obrazları yaratmaqla, sadə və yoxsul insanlara həqiqəti çatdırır, onları dostu ilə düşmənini bir-birindən ayırd etməyə səsləyir:

*Kürnüş elə, əl bağla, bəyi, xanı görəndə*
*Təlim elə, düş səcdəyə mollanı görəndə.* [14]

Akademik İsa Həbibbəyli Əliqulu Qəmküsarın Azərbaycanın ilk satirik mətbuat orqanında fəaliyyətə başlamasını və mollanəsrəddinçilər hərəkatının əsas üzvlərindən birinə çevrilməsini xüsusi vurğulayaraq yazır: "Molla Nəsrəddin" jurnalında onun ilk yazıları "Culfadan" sərlövhəsi ilə çap olunmuşdur: qısa müddətdə çap etdirdiyi satirik şeirləri və publisist məqalələri ilə Əliqulu Qəmküsar tanınmış mollanəsrəddinçi şair kimi qəbul olunmuşdur. İstedadlı satira ustası Azərbaycan şairi, şeir məktəbinin yaradıcısı Mirzə Ələkbər Sabirin vəfatından sonra onun yerini boş qoymamış, tənqidi-realist ədəbiyyatın orijinal nümunələrini yaratmaqla "Molla Nəsrəddin" satira məktəbini daha da zənginləşdirmişdir [10].

Əliqulu Qəmküsar Sabir ədəbi məktəbinin layiqli davamçılarından biri idi. "Molla Nəsrəddin" satirik poeziya qolunun əsas hərəkətverici qüvvəsi kimi zirvəyə yüksələn Sabir yaradıcılığının ecazkar gücü digər mollanəsrəddinçilərlə yanaşı, Qəmküsar şeirlərinə də təsirsiz ötüşməmişdi. Şairin "Yahu keçər" şeiri Sabirin " Səbr elə" satirasına bənzətmə şəklində qələmə alınmışdır:

*Millətinin halı pərişan ola,*
*Hər bir işi nifrətə şayan ola,*
*Cahil ola, vəhşi və nadan ola,*
*Qəm yemə, səbr et, bu da yahu, keçər.* [3]

Ə.Qəmküsar Sabir şeirinə parodiya etsə də, satirada şairin özünəməxsus fərdi üslubi çalarları diqqəti cəlb edir: "Əgər Sabirdə satiranın zərbəsi qüvvətli və öldürücüdürsə, Qəmküsarda bu zərbə yüngülləşmiş, zəifləmiş nəzərə çarpır. Bəlkə bu ona görə belədir ki, satira hədəfləri Sabir dövrünə görə zəifləmiş, hakim mövqeyini itirmişdir. Əlbəttə, burada bir həqiqət də vardır. Sabir mütləqiyyətin ən qatı və qəddar hökmranlıq dövründə, mövhumat, zülmət tərəfdarlarının hələ dövran sürdüyü zaman yazırdı. Qəmküsarda satira zərbədən çox nəsihət, hücumdan çox məsləhət, nifrətdən çox islahat ruhu daşıyırdı" [13, s.215].

Əliqulu Qəmküsar M.Ə.Sabirin məşhur "Nə soxulmusan araya, a başı bəlalı fəhlə" misrası ilə başlayan satirasından bir fon kimi yararlanaraq, "Varlı"sərlövhəli şeirini yazmışdır. Sabir fəhlənin fəaliyyətini, mübarizəsini heç vəchlə qəbul edə bilməyən varlının, kapitalistin iç dünyasını öz dili ilə ifşa metodunu seçirsə, Qəmküsar bu təbəqəyə mənsub olanları açıq, sərrast və birbaşa tənqid etmək üsuluna üstünlük verir:

*Bu qədər ifadələnmə, sənə yoxdu bab, varlı,*
*Füqəranı bəsdir, az soy, elə ictinab, varlı...*
*Bu qədər görəndə yoxsulları, baxma etinasız*
*Onların həzər qıl, etmə ciyərin kabab, varlı...*
*Səni varlı eyləyən həm onların əməkləridir,*
*Pulu sən qucaqlayıbsan, o çəkib əzab, varlı!* [6]

Dövlətin və onun idarəedicilərinin öz mənafeyini güddüyünü, xalq üçün heç bir faydalı iş görmədiyini tənqid hədəfinə çevirir:

*Naxçıvan dumasına gər o kəsin düşdü işi,*
*Çörəyi pişdi, kefi kök, damağı təht oldu.*
*Bir saatlıq iş üçün on gün olur avarə,*
*Əgər axırda düzəltdi, daha xoşbəxt oldu.* [8, s.3]

Ə.Qəmküsarın yaradıcılığında dindən öz məqsədləri üçün istifadə edən yalançı və fırıldaqçı mollaların, islami dəyərləri gəlir mənbəyinə çevirən riyakar, mənfəətpərəst vaizlərin ifşası da geniş yer tutur:

*İnsaf elə, bu qədər yalan macəra demə,*
*Peyğəmbərə, imama bu növ iftira demə,*
*Minbərdə hər cəfəng sözü, qıl həya, demə,*
*Hər bir yalanı həzrətə bilmə rəva, demə.*
*Ey milləti cəhalətə vadar edən axund,*
*Hər dürlü fəqrü iczə giriftar edən axund.* [2, s.8]

Qəmküsar milli ədəbiyyatın təmizliyi, saflığı və qorunması uğrunda daim mübarizə aparıb. Bu baxımdan şairin "Molla Nəsrəddin" jurnalının 1913-cü il 30 dekabr tarixli 29-cu nömrəsində çap etdirdiyi "Müxəmməsçilər" şeiri daha çox diqqəti cəlb edir. Şeirin yaranmasına səbəb "İqbal"qəzetində dərc edilən təxmis, nəzirə, təzmin və başqa janrlı əsərlərdə gözəl, mey, eşq və başqa poetik obrazların tez-tez işlənməsi və qəzetin ictimai mövzuları, aktual və həllini gözləyən məsələləri arxa plana keçirməsi idi. Şair "İqbal" qəzetinin ciddi və xalq üçün daha zəruri problemlərdən uzaqlaşaraq dövrlə səsləşməyən mövzulara müraciət etməsinə ironik münasibət bildirərək yazır:

*Molla dayı, işbu müxəmməsçilər,*
*Yazmaqdadı şövqə gəlib şeirlər,*
*Görsə bu əşarı Füzuli əgər,*
*Məncə onun qailinə həcv edər.*
*Şeir yükündən düzülüb qafilə*
*Hey yıxılır, hey qovulur, nafilə,*
*Səfheyi-"İqbal" dönüb dəftərə,*
*Şeir yazır onda yetən kəslərə,*
*Xəlqə müdiri veriyor mənzərə,*
*Biz də gərək ondan edək qərqərə.*

*Məndən əgər olsa, çəkib kəndirə*
*Çırpı yerinə ataram təndirə.*

Ə.Qəmküsarın "Müxəmməsçilər" satirasından sonra "İqbal" qəzeti artıq öz səhifələrində dövrlə, zamanla səsləşməyən, köhnə ruhlu əsərlər deyil, mövcud quruluşun aktual problemlərini əks etdirən şeirlər dərc etməyə başlayır.

Əliqulu Qəmküsarın yaradıcılığında siyasi mövzular üstünlük təşkil edir. Şair beynəlxalq aləmdə baş verən məsələlərə geniş yer verir, xüsusilə Şərq aləmində, o cümlədən Azərbaycanda imperialist qüvvələrin hegemonluğunu, istilasını ciddi şəkildə tənqid edirdi:

*Gah olur hami ingilis bizə*
*Gah olur dost nemsəvü alman,*
*Olmuşuq yaxşı bəxtəvər insan,*
*Özgələr səy edirlər xeyrimizə.* [16]

Əliqulu Qəmküsarın satirik yaradıcılığında Füzuli qəzəllərindən bir fon kimi yararlanaraq dövrün bir sıra problemlərini qabarıq şəkildə nəzərə çarpdırması da olduqca əhəmiyyətlidir. Şair "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi "Gülməsin" (1910, №7), "Nəzirə" (1913, №24), "Füzulini beşlətmə" (1917, №25) və başqa parodiya və nəzirələrində Füzulinin aşiqanə, lirik mahiyyətli əsərinə ictimai-siyasi məzmun verərək, dövrə və zamana uyğunlaşdırır. Füzulinin məşhur

*Pənbeyi-daği-cünun içrə nihandır bədənim,*
*Diri olduqca libasım budur, ölsəm kəfənim –*

beytilə başlanan qəzəlinə üç misra əlavə edərək, misraların sayını beşə çatdırmış və müxəmməs şəklinə salmışdır:

*Yoxdur aləmdə dəxi qüvvəsi dərdü məhənim,*
*Vardı hər yerdə mənim bollu suyum, bollu dənim,*
*Məni min fikrə salan bu gödənimdir, gödənim,*
*Pənbeyi-daği-cünun içrə nihandır bədənim,*
*Diri olduqca libasım budur, ölsəm kəfənim.* [5, s.2]

Əliqulu Qəmküsar Füzuli qəzəlinin forma-struktur özəlliklərini qorusa da, eyni bəhrdən, yəni rəməldən yararlansa da, müxəmməs məzmun və ideya baxımından tamamilə orijinal bir şəklə salınmışdır.

Ə.Qəmküsar satirik yaradıcılığında məcaz, təşbeh, metafora, epitet, simvol və digər bədii təsvir və ifadə vasitələrindən geniş istifadə etmişdir. Şairin "İranlılar" şeirindən bir parça ilə fikrimizi əyaniləşdirək:

*Altı min illik hökumət millətə əyməz boyun,*
*Heç görübsənmi çobansız otlaya bilsin qoyun.*
*Düşdü meydanə beş-on dinsiz, çıxartdı min oyun,*
*Ol oyundan iştə bağrı qandılar iranlılar.* [4, s.2]

Satirada hakim dairələrin İran xalqına təzim etməməsi, başsız bir millətin sürüyə bənzədilməsi, ölkədə hökm sürən xaotik vəziyyətin "oyun" adlandırılması, İran məmləkətində gedən bu siyasi oyunların insanların bağrını qana döndərməsi kimi sərrast bənzətmə və bədii təsvir vasitələrindən yerli-yerində istifadə olunması şairin yaradıcılığının çoxçalarlı və zəngin poetikaya məxsusluğunu göstərir.

Jurnalda fəaliyyət göstərdiyi illərdə Mirzə Cəlillə onu əqidə və məslək birliyi yaxın dosta çevirmiş, jurnala qarşı edilən yersiz hücumlara, təhqir və təkfirlərə redaktorla birgə Ə.Qəmküsar da sinə gərmiş, hər bir çətinliyə dözmüşdür. Buna görə də Cəlil Məmmədquluzadə bu fədakar insan haqqında söhbət açarkən, onu çox fəal, mübariz, bütöv əqidəli bir məslək adamı kimi həmişə hörmətlə xatırlamışdır. Cəlil Məmmədquluzadə ilə yanaşı, digər mollanəsrəddinçilər də Əliqulu Qəmküsara böyük hörmət bəsləmiş və onu yüksək dəyərləndirmişlər.

Professor İslam Ağayev yazır: "1914-cü ilin sonunda "Molla Nəsrəddin" nəşrdən dayanır. Buna səbəb, hər şeydən əvvəl, Birinci Dünya müharibəsinin başlanması və jurnalın nəşri işində əmələ gələn maddi çətinliklər idi. Bu dövrdə Qəmküsar ata mülkünün satılması ilə əlaqədar olaraq Naxçıvana gedir. C.Məmmədquluzadə isə bir müddət Kəhrizlidə yaşayır. Nə C.Məmmədquluzadə, nə də Ə.Qəmküsar "Molla Nəsrəddin"i yenidən həyata qaytarmaq fikrindən dönmürlər. 1916-cı ilin sonlarında həm C.Məmmədquluzadə, həm də Ə.Qəmküsar Tiflisə qayıdıb, "Molla Nəsrəddin"in nəşri üçün yenidən təşəbbüs göstərirlər. Çarizmin Birinci Dünya müharibəsində məğlubiyyəti və ölkədə inqilabi hərəkatın güclənməsi irticanı daha da amansız etdiyi səbəbindən "Molla Nəsrəddin"i yenidən nəşr etmək arzularını həyata keçirmək mümkün olmur" [1, s.434].

1916-cı ildə "Molla Nəsrəddin" jurnalının fəaliyyəti müvəqqəti dayandırıldıqdan sonra Cəlil Məmmədquluzadə Əliqulu Qəmküsarla birlikdə "Ölülər" əsərini Bakıda tamaşaya qoyur. Şeyx Nəsrullah rolunu Ə.Qəmküsar çox məharətlə ifa edir. Onun bu rolu o zamankı müasirləri tərəfindən yüksək dəyərləndirilmişdir. Bu rol vasitəsilə istedadlı sənətkarın aktyorluq məharəti aşkara çıxmışdır. Sonralar Əliqulu Qəmküsar Cəlil Məmmədquluzadə ilə birlikdə "Ölülər" əsərini tamaşaya qoymaq məqsədilə Dağıstana, Səmərqəndə, Daşkəndə və Volqaboyu şəhərlərinə səyahətə çıxır. Şair gəzdiyi, gördüyü yerlərdə çarizmin xalqlara qarşı zülm və istibdadının şahidi olur, imperiyanın müstəmləkəçilik siyasətinin Şərq xalqlarının taleyindəki izlərini görür, bəla və möhnət içərisində əzilən müsəlman dünyasının acınacaqlı taleyini ürək ağrısı ilə yazıb "Molla Nəsrəddin" jurnalının səhifələrində dərc etdirir:

*Gəzdim Bakı, Daşkəndi, Orenburqu, Samarı,*
*Gördüm həmi Həştərxanı, həm başqa diyarı.*
*Hər yerdə müsəlman qoyub üz nikbətə sarı,*
*Bu dərdə çətindir ola dərman, başa gəlməz.* [17, s.3]

Əliqulu Qəmküsarı bir şair kimi məşhurlaşdıran "Molla Nəsrəddin" jurnalı və onun yaratdığı ədəbi məktəb olmuşdur. Əliqulu Qəmküsar satira yaradıcılığında "Molla Nəsrəddin" ədəbi məktəbinin əsas nümayəndələrindən olan Mirzə Ələkbər Sabir satiralarından ustalıqla bəhrələnmiş, onun davamçısı kimi ədəbiyyat və mətbuat tariximizə daxil olmuşdur.

Cəlil Məmmədquluzadə Əliqulu Qəmküsar şəxsiyyətini və onun yaradıcılığını yüksək dəyərləndirərək yazır: "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil. "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam. Bu əziz yoldaşlarımızın biri də mərhum Əliqulu Nəcəfovdur" [11,s.63-64].

Əliqulu Qəmküsarın satirik poeziyasında olduğu kimi, satirik publisistikasında da dövrün mühüm ictimai-siyasi, sosial və ədəbi-mədəni problemləri geniş şəkildə əksini tapmışdır. "Molla Nəsrəddin" jurnalında Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Məmməd Səid Ordubadi və başqa mollanəsrəddinçilərlə yanaşı, Əliqulu Qəmküsarın publisistik əsərləri də mühüm yer tuturdu. Əliqulu Qəmküsarın ictimai-siyasi məsələləri dövrün prizmasından araşdıran "Qarğalar" pamfleti bu baxımdan diqqəti cəlb edir. Hadisələrin əsl mahiyyətini aydın dərk edən böyük ədib hakimiyyəti yenicə ələ almış müvəqqəti hökumətin xalqa zidd qütbdə dayandığını, boşboğazlıq və yersiz danışıqlarla, yalançı vədlərlə ictimaiyyəti aldatdığını istehzalı bir dillə lağa qoyur və həqiqəti, hakimiyyətin uğursuzluqlarını xalqa çatdırır. Ə.Qəmküsar Şərqin böyük şairi Hafizin məşhur misralarını pamfletə epiqraf seçmişdir:

*Zağ çün şərm nədarəd, ki nəhəd pa bər qol,*
*Bülbülara səzəd ər damənі xari girənd –*

*(Qarğa nə zaman ki, həyasızlıq edib gülün üstünə qondu, biçarə bülbüllərin tikanın ətəyindən tutmaqdan başqa çarəsi qalmadı).*

Ə.Qəmküsar əsərdə qarğalarla yalançı hökumət başçıları arasında bir paralellik apararaq yazır: "Evin yıxılsın, Hafiz, sən yeddi yüz il bundan qabaq nə bilirdin ki, günlərin bir günündə Rusiya millətləri yığışıb, Romanov sülaləsinin murdar üsul-idarəsini dağıdıb yerində müvəqqəti qarğalar hökuməti təşkil edəcəklər və bu qarğalar on aylarla gecə-gündüz, vaxt-bivaxt şəhərdə və kənddə qurultaylar qurub hey qurhaqur salacaqlar. Axırda da içindən bir mətləb çıxmayıb bülbülləri tikana qonmağa məcbur edəcəklər?" [18, s.4]. Doğrudan da, 70 il sovet rejimi "bülbülləri tikana qonmağa" məcbur etdi. Lakin yenidən Azərbaycan xalqı öz müstəqilliyinə qovuşdu. Əsər bu gün də öz aktuallığını, müasirliyini qoruyub saxlamaqdadır.

Əliqulu Qəmküsar bir çox hallarda adi həyati, fakt və hadisələri dərin müşahidə və istedadı sayəsində siyasi müstəviyə qaldıra bilir, dövrün əsas problemləri ilə sıx şəkildə əlaqələndirməyə müvəffəq olur. Bu baxımdan "Tiryək" satirik publisistik məqaləsi diqqəti cəlb edir. Məqalədə Ə.Qəmküsarın cənublu həmvətənlərinə xitabı çox ağır ittiham təsiri bağışlayır və sarkazma yüksələrək onları qəflətdən oyanmağa səsləyir: "Bunların hamısı dəlildir, insanın gözünün açıqlığına və huşyarlığına ki, dünyanın hər guşəsi olursa olsun, genə qafil olmur. Vaxtını, gününü xoş keçirdir və dünyanın ləzzətini qanır. Firənglər, nemsələr aeroplan qayırıb, atılıb-düşüb havaya çıxanda, bu, aeroplansız uçub ərşü kürsünü seyr eləyir. Yaşasın belə millət!" [19, s.3-6].

Ədib "Senzor" felyetonunda çar üsul-idarəsinin devrilməsi, Nikolay hökumətinin süqutu ilə mətbuat üzərindən senzuranın götürüləcəyinə, azad və demokratik düşüncələrin sərbəst ifadəsinə imkan açılacağına ümidlər bəsləyirdi.

Əliqulu Qəmküsar satirik şeirlərində olduğu kimi, publisistik məqalələrində də "Molla Nəsrəddin" üslubuna xas olan sadə və anlaşıqlı dildən istifadə etməklə dərin mətləbləri ifadə etmişdir. Onun jurnalda dərc etdirdiyi "Qatış-bulaş" (1907, №41), "Hürriyyət" (1909, №32), "Ənasiri-ərbəə" (1909, №49), "Ah keçən günlər" (1910, №9), "Ədalət və maliyyat" (1910, №28), "İrəvana səyahətim" (1911, №41), "Dübbə" (1912, №4), "Məkkə" (1913, №4), "Babi" (1913, №6), "Şeytan fəhləsi" (1913, №7), "Qara bayram" (1913, №8), "İftira" (1913, №16), "Kablayılar" (1913, №17), "Əshabi-Kəhf" (1913, №28), "Ənizə ərəblər və hacılar" (1914, №4) və başqa felyetonlarında XX əsr Azərbaycan, İran, Türkiyə və bütövlükdə Şərq xalqlarının həyatında baş verən hadisə və təbəddülatların, hərc-mərcliyin real mənzərələrini tam aydınlığı ilə görmək mümkündür. Dövrün ictimai-siyasi, ədəbi-mədəni həyatında baş verən gerilik, cəhalət, savadsızlıq, fanatizm, mövhumat, xurafat kimi mənfi halların ifşası bu felyetonların əsas mövzusuna çevrilmişdir.

Əliqulu Qəmküsar 1919-cu ildə Tiflisdə xaincəsinə qətlə yetirilmişdir. Əbdürrəhim bəy Haqverdiyev 1924-cü ildə, Ə.Qəmküsarın öldürülməsinin beş illiyi münasibətilə "Kommunist" qəzetində dərc etdirdiyi məqaləsində yazırdı: "Əliqulu Nəcəfzadəyə dəyən güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi. Ona mən "Molla Nəsrəddin" məcmuəsinin adını qoymaqda səhv etmirəm və cürətlə də bu sözü deyirəm. Heyf olsun bivaxt əlimizdən gedən rəfiqimizə ki, həmişə qədirşünas dostlarının ürəyində diridir" [9].

## Nəticə / *Conclusion*

"Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndəsi Əliqulu Qəmküsar jurnalla əməkdaşlığa başladığı dövrdən müxtəlif mövzularda qələmə aldığı satirik şeirləri və felyetonları, publisistik əsərləri ilə jurnalın əsas yazarlarından birinə çevrilmişdir. Şair satirik şeirlərində Mirzə Ələkbər Sabir poeziyasının mollanəsrəddinçi üslubundan, açıq, sadə, anlaşıqlı ifadə tərzindən, mövzu və janr rəngarəngliyindən, ideya zənginliyindən sənətkarlıqla yararlanmışdır.

Əliqulu Qəmküsarın publisistik yaradıcılığında böyük realist yazıçı, "Molla Nəsrəddin" ədəbi hərəkatının yaradıcısı, jurnalın redaktoru Cəlil Məmmədquluzadənin güclü təsiri duyulmaqdadır. Ədibin satirik felyetonlarında Mirzə Cəlil realizminə və mollanəsrəddinçilərin satirik üslubuna məxsus ironiya, eyham, sətiraltı məna, sərt ittiham aktı kimi xarakterik xüsusiyyətlər diqqəti cəlb edir. Bütün bunlar Əliqulu Qəmküsarı "Molla Nəsrəddin" ədəbi məktəbinin istedadlı nümayəndəsi kimi ədəbiyyat tariximizdə qərarlaşdırır.

**Ədəbiyyat / *References***

1. Ağayev, İ. Ədəbiyyat, mətbuat və publisistika problemləri (seçilmiş məqalələr). – Bakı: Elm, 2008.
2. Cüvəllağı bəy. Axund . – "Molla Nəsrəddin", 1909, №46.
3. Cüvəllağı bəy. Yahu, keçər. – "Molla Nəsrəddin" 1911, №3.
4. Cüvəllağı bəy.Iranlılar. – "Molla Nəsrəddin",1911, №28.
5. Cüvəllağı bəy. Naxçıvanda bir nəfər dostuma. – "Molla Nəsrəddin", 1913, №24.
6. Cüvəllağı bəy.Varlı. – "Molla Nəsrəddin" 1917, №26.
7. Dəyənək. – "Molla Nəsrəddin", 1911, №43.
8. Dəyənək. – "Molla Nəsrəddin",1911, №45.
9. Haqverdiyev, Ə. Beş il. – "Kommunist" qəzeti, 14 mart 1924, №60.
10. Həbibbəyli, İ. Mollanəsrəddinçilərin qabaq sırasında. – "525-ci qəzet", 2 aprel 2022-ci il.
11. Məmmədquluzadə, C. Əliqulu Nəcəfov. Əsərləri. 6 cilddə, 6-cı cild. – Bakı: Azərnəşr, 1985.
12. Məmmədquluzadə, C. Əliqulu Qəmküsar. Əsərləri. 6 cilddə, 6-cı cild. – Bakı: Azərnəşr, 1985.
13. Mir Cəlal, Hüseynov, F. XX əsr Azərbaycan ədəbiyyatı. – Bakı: Maarif, 1982.
14. "Molla Nəsrəddin", 1910, №6.
15. "Molla Nəsrəddin", 1911, №44.
16. "Molla Nəsrəddin", 1913, №4.
17. Öz şairimiz. Başa gəlməz. – "Molla Nəsrəddin", 1917, №17.
18. Sarsaqqulu bəy.Qarğalar. – "Molla Nəsrəddin". 1917, №25.
19. Sarsaqqulu bəy. Tiryək. – "Molla Nəsrəddin", 1913, №9.
20. "Şərqi-Rus" qəzeti, 1904, №260.

## Алигулу Гямкюсар и сатирический журнал «Молла Насреддин»

**Гюльбениз Бабаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Резюме.** В статье повествуется о сатирическом творчестве известного представителя азербайджанской литературы XX века, одного из основателей литературной школы «Молла Насреддин» и второго редактора данного журнала, поэта, публициста, актёра, общественного деятеля Алигулу Гямкюсара. Одно из направлений литературного творчества поэта составляет его литературная деятельность в первом сатирическом органе азербайджанской прессы – журнале «Молла Насреддине».

Наиболее плодотворный период творчества Алигулу Гямкюсара относится в основном к 1910 годам. В эти годы наиболее расширяется круг творчества поэта. Основными темами его творчества становятся общественно-политические, социальные, морально-нравственные вопросы процессов, происходящих в жизни Северного и Южного Азербайджана.

Особое место в творчестве Гямкюсара, как и активных членов литературной школы «Молла Насреддин» – Дж.Мамедгулузаде, М.А.Сабир, А.Хагвердиев, О.Ф.Неманзаде, А.Назми, А.Рази, С.Мумтаз, М.С.Ордубади, занимает обличение мучителей людей, стремящихся к науке, образованию, культуре, лживых догматиков, шарлатанов-проповедников, таких уродливых проявлений в обществе, как фанатизм, отсталость.

**Ключевые слова:** журнал «Молла Насреддин», Алигулу Гямкюсар, Джалил Мамедгулузаде, Мирза Алекпер Сабир, сатирическое стихотворение, фельетон, памфлет